

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 234 (23.145)

*7 dekabr 2018-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik


*Rəsmi xronika*

Dekabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Rusiyaya işgüzar səfərə gedib.

Dövlətimizin başçısını Sankt-Peterburq şəhərindəki Pulkovo-1 hava limanında şəhərin vitse-qubernatoru Nikolay Bondarenko, xarici əlaqələr komitəsinin nazir statuslu sədri Yevgeni Qriqoryev və digər rəsmi şəxslər qarşılayıblar.

Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Prezident Kitabxanasına gəlib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Prezidentlər birgə foto çəkdiriblər.

Sonra MDB dövlət başçıları birgə foto çəkdiriblər.



## Naxçıvan Muxtar Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yaradılsın.

2. “Naxçıvan Muxtar Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

3. “Naxçıvan Muxtar Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının tərkibi” təsdiq edilsin (əlavə olunur).

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 6 dekabr 2018-ci il*

## Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə

İcazə verin diqqətinizə çatdıraq ki, Caspian European Clubun dəstəyilə fəaliyyət göstərən Caspian Energy İnternational Media Group Azərbaycanın iqtisadi regionlarının illik investisiya reytinqini hazırlayıb. Reytinq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən regionların sosial siyasətinin və iqtisadi islahatların nəticələrini əks etdirir.

Ən yüksək ümumi bal toplayan “Naxçıvan Muxtar Respublikası” regionlar arasında lider olub. Caspian European Club dünyanın 70-dən çox ölkəsindəki üzvləri, həmçinin beynəlxalq Caspian Energy Jurnalının oxucuları adından Sizi bu əlamətdar hadisə münasibətilə təbrik edir və dünyanın 70-dən çox ölkəsində yayılan beynəlxalq Caspian Energy Jurnalının xüsusi buraxılışının ölkə iqtisadiyyatının flaqmanı hesab olunan Naxçıvanın iqtisadi inkişafına həsr olunmasını təklif etmək istəyirik.

Jurnalın sözügedən xüsusi buraxılışında Sizin eksklüziv müsahibənizi, həmçinin Naxçıvan Muxtar Respublikasının müəssisə, zavod və biznes qurumlarının, onun beynəlxalq partnyorlarının reklam məlumatlarını yerləşdirməyi təklif edirik ki, bu da öz növbəsində Azərbaycanın və iqtisadi inkişaf sahəsində regionlar arasında lider seçilmiş Naxçıvanın iqtisadiyyatının investisiya cazibədarlığını nümayiş etdirmək imkanı yaradacaq.

Reytinqdə Azərbaycanın 10 iqtisadi regionu – Abşeron iqtisadi rayonu, Gəncə-Qazax iqtisadi rayonu, Şəki-Zaqatala iqtisadi rayonu, Lənkəran iqtisadi rayonu, Quba-Xaçmaz iqtisadi rayonu, Aran iqtisadi rayonu, Yuxarı Qarabağ iqtisadi rayonu, Kəlbəcər-Laçın iqtisadi rayonu, Dağlıq Şirvan iqtisadi rayonu və Naxçıvan iqtisadi rayonu qiymətləndirilib. Regionlar 18 parametr üzrə 6 qrupa (sosial-demoqrafik göstərici, sosial-iqtisadi vəziyyət, işgüzar mühit, infrastruktur, rifahlıq və kənd təsərrüfatı) bölünməklə sıralanıb.

Caspian Energy Jurnalının Naxçıvan Muxtar Respublikasına həsr olunmuş xüsusi buraxılışı dünyanın 70-dən çox ölkəsində dövlət və hökumət başçılarına, mötəbər beynəlxalq təşkilatların rəhbərlərinə, nəhəng neft-qaz şirkətlərinin top-menecerlərinə, MDB və Aİ ölkələrində keçirilən xüsusi sərgi və konfranslarda yayımlanacaqdır.

Caspian Energy Jurnalı Caspian European Club-un dəstəyi ilə fəaliyyət göstərir. Caspian European Clubun yaradıcısı və ilk Sədri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir.

Hörmətlə,

**Telman ƏLİYEV**
**Caspian European Club-un və Caspian Energy İnvestment Group-un Sədrinin birinci müavini və Baş icraçı direktoru**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında

## ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Naxçıvan Muxtar Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası (bundan sonra - Şura) qanunvericiliyə uyğun olaraq muxtar respublikada dövlət qulluğunun normativ-metodik təminatını həyata keçirir, dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısını müəyyənləşdirir.

1.2. Şura Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 8 nəfər üzvdən ibarət tərkibdə təşkil edilir və fəaliyyət göstərir.

1.3. Şura öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, digər normativ hüquqi aktları və bu Əsasnaməni rəhbər tutur.

1.4. Şura öz fəaliyyətini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə qarşılıqlı əlaqədə qurur və mütəmadi olaraq özünün fəaliyyəti haqqında məlumatlandırır.

**2. Şuranın əsas funksiyaları**

2.1. Şura aşağıdakı əsas funksiyaları həyata keçirir:

2.1.1. muxtar respublikada dövlət kadr siyasətinin formalaşdırılmasında iştirak etmək;

2.1.2. muxtar respublikanın dövlət hakimiyyəti orqanlarında dövlət qulluğunun vəziyyətini və səmərəliliyini təhlil etmək;

2.1.3. dövlət qulluğunun kadr təminatının proqnozlaşdırılması və planlaşdırılması işini həyata keçirmək;

2.1.4. dövlət qulluğunun təşkili və həyata keçirilməsi ilə bağlı normativ hüquqi aktların və metodik göstərişlərin layihələrini hazırlamaq və həmin sənədlərin hazırlanmasında dövlət hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirmək;

2.1.5. dövlət hakimiyyəti orqanlarının dövlət qulluğu və kadr xidmətlərinin metodik işini əlaqələndirmək;

2.1.6. dövlət qulluqçularının peşə hazırlığı, təcrübə və əlavə təhsili sahəsində işləri təhlil etmək və bununla bağlı təkliflər hazırlamaq;

2.1.7. dövlət qulluqçularına dair məhdudiyyətlərin və təminatların yerinə yetirilməsinə nəzarət etmək.

**3. Şuranın fəaliyyətinin təmin edilməsi**

3.1. Öz funksiyalarını həyata keçirmək məqsədi ilə Şura:

3.1.1. müvafiq dövlət hakimiyyəti orqanlarından zəruri materialları sorğu edir və alır;

3.1.2. dövlət qulluğunun təşkili və həyata keçirilməsi ilə bağlı normativ hüquqi aktların və metodik göstərişlərin layihələrini hazırlayır, müvafiq dövlət hakimiyyəti orqanlarının nümayəndələrini və mütəxəssisləri bu işə cəlb edir;

3.1.3. dövlət hakimiyyəti orqanlarında dövlət qulluğunun vəziyyətini və səmərəliliyini təhlil edir;

3.1.4. əmək qanunvericiliyinin və dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi, o cümlədən əmək intizamının pozulması və əmək mübahisələri ilə bağlı vəziyyəti öyrənir və ümumiləşdirir;

3.1.5. dövlət qulluqçularının fəaliyyətinin səmərəliliyinin artırılması yollarını araşdırır və bununla bağlı tədbirlər (təkliflər) hazırlayır;

3.1.6. qanunvericiliyə uyğun olaraq dövlət qulluqçularının şikayətlərinə baxır.

3.2. Şuranın fəaliyyətinə rəhbərliyi və işinin təşkilini Şuranın sədri həyata keçirir. Şuranın sədri onun tərkibindən Şura üzvlərinin sadə səs çoxluğu ilə seçilir.

3.3. Şuranın iclasları mütəmadi olaraq keçirilir. Zərurət olduqda Şuranın fövqəladə iclasları çağırıla bilər. Şuranın iclasları onun üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın müzakirə etdiyi məsələlərə dair qərarları Şuranın iclasında iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı xüsusi rəyi olan Şuranın üzvü öz rəyini qəbul edilmiş qərara əlavə edə bilər.

3.4. Şura özünün Reqlamentini təsdiq edir.

3.5. Şuranın qəbul etdiyi qərarlar dövlət qulluqçuları üçün məcburidir.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının

## T Ə R K İ B İ

1. Əli Həsənov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri

2. Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

3. Gözəl Şahməmmədova Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Təltif və kadrlarla iş sektorunun müdiri

4. İsmayıl Qəribli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri

5. Əhliman Xıdırov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının hakimi

6. Sənan Qarayev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi İnzibati-iqtisadi kollegiyasının hakimi

7. Aytən Məmmədova Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini

8. Ayaz Məhərrəmov Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Aparatının Qanunvericilik bölməsinin rəisi

## Ümummilli liderin xatirəsi yad edilib

***Naxçıvan Dövlət Universitetində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım gününə həsr olunmuş “Sən həmişə bizimləsən” adlı tədbir keçirilib. Xarici tələbələrlə iş üzrə dekanlığın təşkil etdiyi tədbirdə hazırlıq kursunun əcnəbi tələbələri iştirak ediblər.***





Əvvəlcə ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra xarici tələbələrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbirdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək görkəmli dövlət xadiminin Azərbaycan Respublikasının hərtərəfli inkişafındakı xidmətlərindən danışıb.

Xarici tələbələrlə iş üzrə dekan, filologiya üzrə fəlsəfə doktoru, dosent Ceyran Quliyeva “Xarici tələbələrin Naxçıvan Dövlət Universitetində təhsili” mövzusundakı çıxışında ali təhsil ocağında təhsil alan xarici tələbələrin elmi-ictimai işlərdə fəal iştirak etdiklərini bildirib, keçirilən tədbirlər barədə məlumat verib.

Müalicə işi ixtisası üzrə IV kurs tələbəsi Şehriban Sarıhan “Ümummilli lider Heydər Əliyev xarici tələbələrin gözü ilə” mövzusunda çıxış edərək deyib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müasir Türk dünyasının böyük lideri kimi Türkiyə və Azərbaycan dövlətlərinin siyasi-iqtisadi əməkdaşlığının inkişafında, xalqlarımızın həmrəyliyində, milli-mənəvi tərəqqisində müstəsna xidmətləri olub.

Tədbir xarici tələbələrin ümummilli liderə həsr etdiyi bədii kompozisiya ilə davam edib.

Sonda universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov xarici tələbələrlə görüşərək onlara uğurlu tədbirə görə təşəkkürünü bildirib.

*Müasirləşən kəndlərimiz*

## Yeni çalarları ilə yeni arzular yaradan yurd yeri – Kosacan



*Qədim diyarımızın son 20 ildən bir qədər artıq zaman kəsiyində keçdiyi inkişaf yoluna nəzər salanda qürur hissi keçirirsən. Bu inkişaf bu torpaqda yaşayan insanların gözü önündə baş verib.*

Ötən əsrin səksəninci, eləcə də müstəqilliyimizin ilk illərində yaşanmış çətinlikləri xatırlayanda bugünkü inkişafa təəccüblənməmək olmur. Və bir naxçıvanlı kimi doğma diyarımızın bu tərəqqisi mənim də qəlbimi fərəh hissləri ilə doldurur. Dayanmadan sürətlə gözəlləşən, müasirləşən Naxçıvan... Bu gözəlləşmə, müasirləşmə elə-belə başa gəlməyib. Yollar axtarılıb, insanın layiq olduğu səviyyədə yaşamasını təmin etmək üçün çətinliklərə sinə gərilib. Sərhəd və ən ucqar dağ kəndlərindən başlanılan quruculuq tədbirləri öz bəhrələrini verib. Bu işlərə başlanılan ilk dövrlərdə bir il ərzində 4-5 yeni obyekt istifadəyə verilirdisə, bir qədər sonra hər hansı bir yaşayış məntəqəsində kompleks quruculuq tədbirləri aparılmağa başlanıldı. Bu ənənə artıq həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilib. Muxtar respublikanın bütün bölgələrini əhatə edən yeniləşmə, müasirləşmə tədbirləri diyarımızın ən böyük bölgələrindən biri olan Şəruru da əhatə edib.

Hər il bu rayonun müxtəlif ünvanlarında məktəblər, mədəniyyət, səhiyyə, rabitə müəssisələri üçün yeni binalar inşa olunur, kənd və xidmət mərkəzləri salınır, yollar abadlaşdırılır, körpülər tikilir. Bütün bunları görəndə ümummilli lider Heydər Əliyevin sözlərini xatırlayırıq: ***“Şərur rayonu həm ərazisinə, həm iqtisadi potensialına, həm də əhalinin sayına görə Naxçıvan Muxtar Respublikasının ən böyük rayonudur, həmişə Naxçıvan Muxtar Respublikasında özünün bu qabaqcıl rolunu göstəribdir və bu gün də göstərir. Mən arzu edirəm ki, siz gələcəkdə də öz işlərinizi daha da yaxşılaşdırasınız. Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanları, sizlər varsınız. Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz”.*** Ulu öndərin tövsiyələrinə böyük ehtiramla əməl olunan bölgə bu gün ən müasir Azərbaycan rayonuna çevrilib.

Cari ilin ötən dövründə Şərurda quruculuq prosesləri uğurla davam etdirilib, Ərəbyengicə, İbadullah kəndlərində bir sıra obyektlərin açılışı olub, su və kanalizasiya sistemləri yeniləşdirilib. Yengicə kəndində Şərq hamamı yenidən qurularaq istifadəyə verilib. Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yenidən qurulması başa çatdırılıb, Kərimbəyli kəndində tikinti işləri davam etdirilir.

Noyabr ayının üçüncü ongünlüyündə rayonun Kosacan kəndi də müasirliyə qovuşaraq Şərurun gözəlliyinə yeni çalarlar gətirib. Bu yurd yerində əsl bayram sevinci yaşanıb. Kənddə olaraq biz də kosacanlıların sevincinə qoşulduq.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Samir Cəfərov deyir ki, kosacanlılar 2018-ci ili onlar üçün ən düşərli il sayırlar. Belə ki, noyabr ayının 21-də kənddə bir neçə obyektin açılışı olub. Burada yeni məktəb binası, kənd və xidmət mərkəzləri, kənd mərkəzində 4 otaqdan ibarət feldşer-mama məntəqəsi istifadəyə verilib, 5,7 kilometrlik kənddaxili avtomobil yoluna asfalt örtük salınıb, 6500 metr kənddaxili yol təmir olunub. Yolun üzərində 76 su keçidi və 19 suötürücü qoyulub. 1524 metr beton kanal çəkilib. Kosacanda 2219 metr yeraltı və 8718 metr hava rabitə xəttinin, 8156 metr izolyasiyalı hava elektrik xəttinin çəkilməsi, 2 transformator yarımstansiyasının qurulması bu sahədə olan çətinlikləri aradan qaldırıb. Yaşayış məntəqəsi sakinlərinin qazdan və sudan istifadəsini yaxşılaşdırmaq üçün 3011 metrlik qaz xəttinin təmir-bərpa işləri aparılıb, 1340 metr içməli su xətti yenilənib, mövcud subartezian quyusu əsaslı təmir olunub. Bütün bunlar 1532 sakini olan Kosacana böyük dövlət qayğısının ifadəsi kimi dəyərləndirilib. 234 şagird yerlik məktəbdə 2 elektron lövhəli otaq, 15 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, müəllimlər, psixoloq, şahmat otaqları, kitabxana və idman zalı vardır. Məktəbin müəllim və şagirdlərinin istifadəsinə zəngin fondu olan kitabxana verilib.

Yeni təhsil ocağında müəllimlərlə həmsöhbət oluruq. Müəllim Jalə Xəlilovanın dediklərindən: – Kosacan kəndində əvvəlki illərdə mövcud olan məktəb binası dövrün tələblərinə cavab verməsə də, şagirdlərin yaxşı oxuması, biliklərə yiyələnməsi üçün müəllimlər üzərlərinə düşən vəzifələrin öhdəsindən gəlməyə çalışıblar. Məktəbdə tədrisin yüksək səviyyədə qurulmasının nəticəsidir ki, ötən dərs ilində məktəbin 8 məzunundan 7-si ali məktəbə qəbul olunub, onlardan biri 560 bal toplayıb. İlboyu məktəbdə müxtəlif tədbirlər keçirilib, təhsil ocağının şagirdləri rayonda və muxtar respublikada keçirilən yarışlara qatılıblar. Bu gün məktəbin pedaqoji kollektivi çalışır ki, dövlətimizə və dövlətçiliyimizə sadiq vətənpərvər gənclər yetişdirməklə bərabər, bu məktəbdə yaradılmış ənənələri davam etdirsinlər.

Məktəbin müəllimi Aydın Yusifov da sevincini bizimlə bölüşür: – Sevinirik ki, məktəbimiz rayon mərkəzlərində, Naxçıvan şəhərində istifadəyə verilən məktəblərlə bir sırada durur. Tədris ocağında təhsilin səviyyəsini daha da yüksəltmək üçün hərtərəfli şərait yaradılıb, maddi-texniki baza gücləndirilib, müasir informasiya-kommunikasiya avadanlıqları ilə təchiz olunub. Bu, məsuliyyətimizi daha da artırıb. Binanın istifadəyə verildiyi gün Ali Məclisin Sədri elektron lövhəli sinifdə “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyi ilə muxtar respublikanın 224 məktəbi arasında keçilən distant dərsi izlədi, şagirdlərin iştirakı ilə muzeylərdə açıq dərslərin keçilməsini tapşırdı. Çalışacağıq ki, bizə göstərilən etimadı öz işimizlə doğruldaq. Göstərilən qayğıya təhsildə qazandığımız yüksək nailiyyətlərlə cavab verək.

Həmin gün istifadəyə verilən obyektlərdən biri yeni kənd mərkəzidir. Binada rabitə evi, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, polis sahə və baytarlıq məntəqələri, kitabxana, statistika otağı, feldşer-mama məntəqəsi, klub, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv və 44 yerlik zal fəaliyyət göstərir. Kənddə müasir rabitə sistemi yaradılıb, 2 min metr fiber-optik xətt çəkilib, 384 yerlik ATS quraşdırılıb və poçt bölməsi fəaliyyətə başlayıb. Kənddə 44 internet istifadəçisi var.

Samir Cəfərovla binadakı iş otaqlarını gəzirik. Mərkəzdə feldşer-mama məntəqəsi üçün 4 otaq ayrılıb. Məntəqə müdiri Nəzakət Bayramova deyir ki, Kosacanda bu səhiyyə müəssisəsinin istifadəyə verilməsi kənd camaatına göstərilən səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsinə şərait yaradıb. Məntəqənin kollektivi bu şəraitdən səmərəli istifadə etməyə səy göstərir.

Son illər muxtar respublikanın kənd və qəsəbə yaşayış məntəqələrində həyata keçirilən kompleks quruculuq tədbirləri çərçivəsində xidmət mərkəzləri də inşa olunur. Məqsəd isə ondan ibarətdir ki, yaşayış məntəqələrinin sakinləri tələbatlarını ödəmək üçün digər yerlərə üz tutmasınlar. Noyabr ayının 21-də Kosacanda da xidmət mərkəzi istifadəyə verilib. Burada 6 nəfər işlə təmin olunub.

Kənd sakinləri xidmət mərkəzinin fəaliyyətindən razılıq edirlər. Onlardan Məmməd Cəfərov, Əbülfəz Həsənov dedilər ki, Kosacan muxtar respublikanın əkinçilik və heyvandarlıqla məşğul olan yaşayış məntəqələrindən biridir. Onların özlərinin müxtəlif kənd təsərrüfatı texnikaları, məhsuldar əkin sahələri var. Bu sahələrdə taxılçılığı, əkinçiliyin müxtəlif sahələrini, maldarlıq və heyvandarlığı, meyvəçiliyi inkişaf etdirirlər. Bunun üçün dövlətimiz torpaq mülkiyyətçilərinə güzəştli kreditlər verir, onların texnika, qiymətli toxum sortları ilə təminatına köməklik göstərir. Bütün bunlar isə kənd adamlarını torpağa daha sıx tellərlə bağlayır. Bu gün Kosacanda istifadəyə verilən yeni obyektlər kənd adamına daha bir qayğının ifadəsidir.

El ağsaqqalı Cəlal Həsənov Kosacana göstərilən bu qayğını yüksək dəyərləndirir, belə xeyirxah tədbirləri həyata keçirənlərə uzun ömür, cansağlığı arzulayır. Kənddə bu işlərin görülməsi o deməkdir ki, muxtar respublika sakinləri, o cümlədən kosacanlılar hərtərəfli qayğı əhatəsindədirlər. Ölkəmiz iqtisadi cəhətdən gündən-günə inkişaf edir. Bu da kəndlərimizin simasını dəyişdirməyə, müasirləşdirməyə imkan verir. Kənd camaatına o qalır ki, qurulub-yaradılanları qorusunlar, gələcək nəsillərə ərməğan etsinlər.

*Bəli, bu bir həqiqətdir ki, bugünkü Naxçıvan ümummilli liderimizin bir vaxtlar arzuladığı Naxçıvandır. O arzular Kosacanda da gerçəkləşib.*

**Elman MƏMMƏDOV**

## Muxtar respublikada sanator-kurort müalicələrinə start verilib

Son illər muxtar respublikada müalicə-sağlamlıq turizminin inkişafı məqsədilə Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicəxanası, müalicəvi Şorsu palçığı və Naftalan nefti haqqında təbliğat materiallarının, o cümlədən elektron resursların hazırlanması istiqamətində bir sıra işlər görülüb. Görülən tədbirlərin nəticəsi olaraq bu il dekabrın 6-dan muxtar respublikada sanator-kurort müalicələrinə start verilib. İlk dəfə olaraq ölkəmizin paytaxtı Bakı şəhərində yaşayan 44 sağlamlıq imkanları məhdud şəxs sanatoriya-kurort göndərişləri ilə dekabrın 6-da Naxçıvana gəlib.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində qonaqlara bu səhiyyə müəssisəsi barədə məlumat verilib. Bildirilib ki, burada sanator-kurort müalicələrinin aparılması üçün hərtərəfli şərait yaradılıb. Şorsu palçığının tətbiqi fizioterapiyanın yeni üsulu kimi müalicələrdə öz faydasını verməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə müalicə əhəmiyyətli palçıq bu il AMEA Naxçıvan Bölməsi tərəfindən qablaşdırılaraq səhiyyə müəssisələrinə, əczaxanalara verilib.

Qeyd olunub ki, Şorsu palçığı vasitəsilə periferik sinir sisteminin, dayaq-hərəkət sisteminin, damar, ginekoloji, bir sıra dəri xəstəlikləri və yanıqlardan sonrakı fəsadlar müalicə olunur. Sanator-kurort müalicəsi kimi Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində oynaq ağrılarının, dəri xəstəliklərinin və digər xəstəliklərin müalicəsində istifadə ediləcəkdir. “Şorsu” müalicəvi palçığından aplikasiya və ümumi palçıq vannası şəklində istifadə olunması da mümkündür.

Qonaqlar əsaslı şəkildə yenidən qurulan Duzdağ Fizioterapiya Mərkəzində ilk müalicəni alıblar. Burada tənəffüs yolu, bronxial-astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən xəstələrin müalicəsi üçün hər cür şərait yaradılıb.

Darıdağ Arsenli Su Müalicəxanasında olan sağlamlıq imkanları məhdud şəxslər arsenli su vannası qəbul ediblər. Onların revmatik, dəri, əzələ, sinir və dayaq-hərəkət sistemləri xəstəliklərinin ambulator müalicəsinə başlanılıb. Bu müəssisələrdə tibbi prosedurlardan keçənlərdən Aybəniz Cəfərova, Elvira Əbdürrəhmanova, Qulu Əsədov, Ramiz Nəcəfov, Yaşar Nuriyev və Svetlana Həsənova fiziki imkanları məhdud insanların sağlamlığının bərpası istiqamətində görülən işləri, bütövlükdə, əhalinin hər bir təbəqəsinin sağlamlığına göstərilən dövlət qayğısının ifadəsi kimi dəyərləndirib və muxtar respublika rəhbərinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Duzdağ Fizioterapiya Mərkəzi, Diaqnostika-Müalicə Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanasında sağlamlıq imkanları məhdud olan şəxslərin müalicəsi 10 gün davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Elmi nailiyyətləri ilə səsi xarici ölkələrdən gələn naxçıvanlı alim qadın

*O, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Hidrogeologiya və mineral sular laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədovadır. 2018-ci ilin ötən dövrü ərzində bir-birinin ardınca Paris, Moskva kimi paytaxt şəhərlərində böyük elmi nailiyyətlər qazanmasından duyduğumuz qürur hissi bizi onunla görüşə apardı. Bu ziyalı, eyni zamanda nəcib, təvazökar qadınla tanış olub söhbətləşdik.*



Öyrəndik ki, o, Rusiya Təbiət Elmləri Akademiyasının Rəyasət Heyətinin təsis etdiyi impakt faktorlu nüfuzlu jurnallarda dərc olunan məqalələrinə və elmi fəaliyyətinə görə 2018-ci il 1 fevral tarixdə akademiyanın prezidiumunda bu elm ocağının professoru elmi adını alıb. Elə buradaca Fizzə xanımla söhbət zamanı bir vaxtlar xəyalında canlandırdığı arzularını xatırlamaq yerinə düşər. O deyir: “Hələ balaca bir qızkən həmişə professor olacağam, – deyirdim. Böyüdüm, təhsil aldım, arzuma çatmaq üçün mübarizələr apardım. Lakin səhhətimdə yaranan problemlər arzuma çatmağa yol vermədi. Sən demə, mənim professor olmaq arzum belə gerçəkləşəcəkmiş: 2018-ci ildə Rusiya Federasiyasında”.



Fizzə Məmmədova fevral ayının 20-də isə “Elmin qızıl fondu” milli proqramı çərçivəsində Rusiya Təbiətşünaslıq Akademiyasının “Əməkdar elm və texnika xadimi” fəxri adına layiq görülüb.

Mart ayının 16-19-da Parisdə keçirilən 38-ci Beynəlxalq Luvr sərgisində bir çox Avropa ölkələrinin alim, yazıçı və müəlliflərinin elmi və pedaqoji fəaliyyətinin intensivliyini artırmaq, kitab, monoqrafiya, dərslik, metodik vəsait və elektron nəşrlərin elmi paylaşmasını gücləndirmək məqsədilə 30 min kitabın sərgisi təşkil olunub. Fizzə Məmmədovanın üç müəllifdən biri olduğu “Təbii suların geokimyası və Naxçıvan Muxtar Respublikasında yayılma xüsusiyyətləri” adlı kitab sərgidə nümayiş etdirilib və sərginin “Qızıl medal”ı ilə mükafatlandırılıb. Həmin kitab aprel ayının 18-22-də Türkiyə, İran, Rusiya, Monqolustan, Polşanın təhsil nazirləri, UNESCO-ya üzv olan ölkələrin nümayəndələri, 1000-dən artıq elm və təhsil müəssisəsinin əməkdaşlarının iştirak etdiyi Moskva Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində keçirilən V Beynəlxalq Təhsil – 2018 sərgisinin diplomuna da layiq görülüb. Kitabın rus və ingilis dillərində xülasəsi sərginin kataloqunda dərc olunub. Bütün bu nailiyyətlərdə alimimizin naxçıvanlı qadın kimi təqdim olunması isə, təbii ki, ürəyimizi sevinc hissi ilə doldurur.

Mükafatlandırılan kitabı vərəqləyərkən burada Naxçıvanda su ehtiyatlarının formalaşması, yayılması qanunauyğunluqları ilə yanaşı, həm də zəngin təbiəti olan diyarımızın turizm üçün mühüm əhəmiyyətinin qeyd edildiyini görmək olur. Kitabdan oxuyuruq: “Naxçıvan Muxtar Respublikasının coğrafi və təbii şəraiti bölgədə turizmin inkişafı üçün geniş perspektivlər vəd edir. Burada zəngin mineral su yataqları, dağ çayları, göl və mineral bulaqları, gözəl mənzərəli yerlərin və tarixi mədəniyyət abidələrinin olması ekoturizmin inkişafı üçün əlverişli şərait yaradır. Hazırda muxtar respublikada 150 min hektara yaxın ərazini əhatə edən milli park, təbiət qoruğu, üç yasaqlıq vardır… Muxtar respublikada ekoturizm infrastrukturunun inkişafı istiqamətində artıq müəyyən tədbirlər uğurla yerinə yetirilir. Turizm sahəsində mütəxəssislərin hazırlanması üçün Naxçıvan Dövlət Universitetində Turizm və otelçilik ixtisası üzrə kadrlar yetişdirilir. Eyni zamanda muxtar respublikada müasir otellər və turizm şirkətləri fəaliyyət göstərir…”

May ayında isə Fizzə xanım Yekaterinburq şəhərində keçirilən beynəlxalq elmi konfransda iştirakına və “Rusiya elmi: məqsəd və vəzifələr” adlı jurnalda “Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarının kimyəvi, ekoloji problemləri və həlli yolları”, “Naxçıvan çuxurunda atmosferin ekoloji xüsusiyyətləri”, “Naxçıvan Muxtar Respublikası ərazisində yerüstü suların ekokimyəvi xüsusiyyətləri” adlı elmi məqalələrinə görə Beynəlxalq Birləşmiş Elmlər Akademiyasının üzvü seçilib. Eyni zamanda onun elektron ünvanı akademiyanın bütün üzvləri arasında yayılıb ki, bu da həmyerlimizin 19 ölkənin kimya və ekologiya sahəsindəki nüfuzlu alimləri ilə qarşılıqlı elmi əməkdaşlıq yaratmasına, gələcəkdə keçiriləcək konfranslarda, sərgilərdə iştirakına şərait yaradır.

May ayı daha bir əlamətdar hadisə ilə də Fizzə xanımın ömür kitabının səhifələrinə həkk olunub. Həyat yoldaşı, AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov, Qiyas Qurbanovla həmmüəllifi olduğu digər bir kitabı – “Cəmiyyət və təbiətin qarşılıqlı əlaqəsində ekologiya və ətraf mühit” işıq üzü görüb. Kitabda Naxçıvanda atmosfer, litosfer və hidrosferin ekoloji xüsusiyyətlərindən bəhs olunur, müəlliflərin ətraf mühitə və ekosistemlərə baxışı, onların inkişaf və perspektivləri haqqında fikirləri yer alır. Həmin kitab Moskva şəhərində 30 ölkənin 300-dən çox nəşriyyatının elm, təhsil, sorğu-ensiklopedik, uşaq ədəbiyyatına dair kitablar, monoqrafiya, dərslik, metodik vəsaitlər və məruzələri, sənədli filmlərin nümayiş olunduğu 31-ci Beynəlxalq Kitab Sərgi Yarmarkasında sərgilənib. Kitab elmin və təhsilin inkişafında əhəmiyyətinə görə Təşkilat Komitəsinin “Qızıl medal”ına layiq görülüb və Təbiətşünaslıq Akademiyasının ekspozisiyasında sərginin annotasiya olunan kataloquna salınıb. Kitabın həmmüəllifləri sessiyada və sərgidə iştirak etmək üçün dəvət alıb.

Dəyərli ziyalı Fizzə xanımla maraqlı söhbətimiz bizi onun gəncliyinə, təhsil aldığı illərə, ailə həyatına da aparıb çıxardı. Söhbət zamanı öyrəndik ki, o, 1975-ci ildə Bakı Dövlət Universitetinin Kimya fakültəsini bitirib. Üç il Culfa rayonunun Bənəniyar kənd məktəbində müəllim işləyib. 1978-ci ildən 1995-ci ilədək isə AMEA-nın Qeyri-üzvi və Fiziki-kimya İnstitutunda çalışıb. Burada işə başladığı il qucağında biryaşlı qızı olan gənc kimyaçı həm də təhsilini davam etdirmək üçün sənədlərini aspiranturaya verir. Elə çalışdığı Qeyri-üzvi və Fiziki-kimya İnstitutunda da əyani təhsil alaraq müdafiə edir. Fizzə xanım o günləri belə xatırlayır: “Həmin il aspiranturaya mənim sahəm üzrə sənəd verən 6 nəfərin arasında tək qadın idim. Körpə övladım olduğu üçün sənədlərimi götürmək istəmirdilər. Lakin əzmkarlığım və aldığım əla qiymətlərlə qəbul olundum və təhsil aldım. Sonralar kimya elmləri doktoru İsmayıl Hüseynov mənim haqqımda çox yanıldığını dəfələrlə etiraf edirdi”.

Fizzə Məmmədova 1995-ci ildən Naxçıvan Regional Elm Mərkəzində əmək fəaliyyətini davam etdirir. Bu il, ümumiyyətlə, akademiyadakı fəaliyyətinin 40 ili tamam olan alim hazırda Naxçıvan Muxtar Respublikasının təbii sularının yayılma qanunauyğunluğu, kimyəvi tərkibi, ehtiyatları, suvarmaya yararlılığının qiymətləndirilməsi üzrə tədqiqat işini davam etdirir.

Fizzə xanım da bütün işləyən analarımız kimi övladları azyaşlı olanda çox əziyyət çəkib. Onların qayğıları, ev işləri, çətin bir sahədə çalışmaq zərif bir qadın üçün ağır olsa da, o, bütün bunların öhdəsindən layiqincə gəlib. İki övladı – qızı və oğlu təhsil alıblar. Özü isə zamanın onun taleyi qarşısında açdığı yolla alnıaçıq, qürurla irəliləyərək bugünkü mövqeyə çatıb. İctimai işlərdə daim öndə gedən qadınlarımızdan olub. 11 ildir ki, Fizzə Məmmədovanın rəhbərlik etdiyi “Təmiz dünya” İctimai Birliyi muxtar respublikada qadın və uşaq hüquqlarının, milli-mənəvi dəyərlərin qorunması, ekoloji şüurun inkişafı və ekoloji mədəniyyətin təbliği, gənclərdə etik-davranış normalarının təkmilləşdirilməsi və vətəndaş cəmiyyətinin inkişafı yönündə tədbirlər həyata keçirir, maarifləndirmə işləri aparır, beynəlxalq təşkilatların keçirdiyi seminar və təlimlərdə fəal iştirak edir. Keçdiyi zəhmətlə, mübarizələrlə, qayğıkeşliklə dolu həyat yolu Fizzə xanımı muxtar respublikamızın nüfuzlu ziyalı qadınlarından birinə, ləyaqətli həyat yoldaşı, həmçinin 5 nəvənin və 1 nəticənin nənəsinə çevirib.

Bu ailə də onlarla naxçıvanlı ailə kimi dövlət qayğısından yararlanıb. Fizzə xanım bundan böyük minnətdarlıq hissi ilə danışaraq deyir: “2013-cü ildə bizə hər cür şəraiti olan mənzil verilib. Bu, mənim ailəmə göstərilən böyük qayğıdır. Elə ona görə də bütün ailəm adından bunu yüksək qiymətləndirir və minnətdarlığımızı bildirmək istəyirəm. Hər zaman işimizlə, əməyimizlə bu etimadı doğrultmağa çalışırıq”.

Bəzən dəqiq elmlərlə məşğul olan alimlərin başının çoxlarımız üçün əlçatmaz olan bu sahənin çətinliklərinə qarışdığını və onların ədəbiyyatdan uzaq olduqlarını düşünürük. Lakin “Təbii suların geokimyası və Naxçıvan Muxtar Respublikasında yayılma xüsusiyyətləri” adlı elmi əsərin son sətirlərini oxuyarkən bu cür fikirləşənlərin haqsız olduğunu təsdiq etdik. Həmin sətirlərdən oxuyuruq: “Bu tədqiqatda durğun göl və dənizlərin bəzən lal sükutunu, dağ çaylarının, şəlalələrin və fırtınalı okeanların gurultulu nəğməsini, təbiətin melodiyasını duydunuz. Rəngsiz bildiyimiz suyun bəzən qəhvəyidən maviyə qədər müxtəlif rənglərə boyandığını gördünüz. Nəticədə, bir damla suyun nə qədər möcüzələr yaratdığını, təbiətin möhtəşəm qüdrət sahibi, həm də onun şah əsəri olduğunu təsdiq etdiniz”.

Biləndə ki, bu sətirləri üçmüəllifli kitaba məhz Fizzə xanım özü yazıb, bu həssas qəlbli qadına nə arzulaya bilərik: Təbii ki, ömrünün tədqiq etdiyi sular qədər uzun, fəaliyyətinin suların axarıtək rəvan, nailiyyətlərinin isə daha çox olmasını.

✍ **Mətanət MƏMMƏDOVA**

## Şair və yazıçılarla görüş keçirilib

*Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin və Şərur Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Bahar” kinoteatrında rayon ağsaqqalları, ziyalıları və gəncləri ilə muxtar respublikada yaşayıb-yaradan yazıçı və şairlərin görüşü, 2018-ci ildə çap olunmuş kitabların təqdimatı keçirilib.*



Tədbiri rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Ağayeva açaraq qeyd edib ki, Naxçıvan şəhəri, həmçinin muxtar respublikamızın bütün rayon mərkəzləri və kəndlərimiz gündən-günə abadlaşır, gözəlləşir, çox böyük quruculuq, yaşıllaşdırma işləri aparılır. Belə tədbirlər hesabına qədim Şərur torpağı da bu gün müasirlik donundadır. Bu proses həm də yaradıcı sənət adamlarının ilham mənbəyinə çevrilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, şair Asim Yadigar çıxış edərək bildirib ki, görüşün keçirilməsində məqsəd son illərdə muxtar respublikada geniş vüsət alan inkişaf və tərəqqi haqqında söhbət açmaq, bu prosesin ədəbiyyatda salnaməsini yaradan qələm sahiblərinin fəaliyyəti barədə danışmaq, onların 2018-ci ildə işıq üzü görən kitablarını rayon ictimaiyyətinə təqdim etməkdir.

Sonra söz tədbirdə iştirak edən qələm sahiblərinə verilib. Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Hüseyn Əsgərov, Muxtar Məmmədoğlu, İbrahim Yusifoğlu, filologiya üzrə fəlsəfə doktoru Həsənəli Eyvazlı, Muxtar Qasımzadə, Sürəyya Nəsib, Püstə Gülsevən və başqaları muxtar respublikada yaradıcı insanlara göstərilən dövlət qayğısından danışıblar. Qədim diyarımızın bugünkü inkişaf və tərəqqisinin onlar üçün ilham mənbəyi olduğunu və bunu öz əsərlərində qələmə aldıqlarını qeyd ediblər.

Tədbirdə muxtar respublikada yaşayıb-yaradan yazıçı və şairlərin 2018-ci ildə işıq üzü görmüş kitabları barədə söhbət açılıb, ulu öndər Heydər Əliyevə həsr olunmuş şeirlər bədii qiraət edilib.

**Xəbərlər şöbəsi**

## Vəzifələrin icrası diqqətdə saxlanılır

Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması, həmçinin qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası diqqətdə saxlanılır, iclas, konfrans, monitorinqlər keçirilir, muzeylərə ekskursiyalar təşkil olunur. Noyabr ayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə “Yüz il öncə və bu gün Naxçıvan qadını” mövzusunda konfrans keçirilmişdir.

Ordubad rayonunun Yuxarı Əylis kəndində “Reproduktiv sağlamlıq və ailə dəyərləri” mövzusunda tədbir keçirilmiş, 205 maarifləndirici broşür paylanılmışdır. Ötən dövrdə aztəminatlı ailələrin hüquqlarının qorunması, sosial problemlərinin öyrənilməsi və həll edilməsi diqqətdə saxlanılmış, 70 aztəminatlı ailədən olan uşağa mövsümlə əlaqədar qış geyimi verilmiş, 1 ailəyə müvafiq köməklik göstərilmişdir.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının qorunması ilə əlaqədar 3 uşaq müəssisəsində, eləcə də valideyn himayəsindən məhrum olan 5 uşağın yaşadığı evdə monitorinqlər aparılmış, Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 495 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı işlər görülmüş, 5 uşaq məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Şagirdlər “Ritmik muğam kompozisiyası” ilə çıxış ediblər



Dekabrın 6-da Babək rayonunun Cəhri Kənd Uşaq Musiqi Məktəbinin xanəndəlik ixtisası üzrə müəllim və şagirdlərinin Naxçıvan Şəhər “Gənclik” Mərkəzində “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018” tədbirləri çərçivəsində “Ritmik muğam kompozisiyası” adlı konsert proqramı olub.

Konsertdə Cəhri Kənd Uşaq Musiqi Məktəbinin müəllimi Hünər Əliyev, şagirdləri Əli Mehralıyev, Həsən Babazadə, Ələkbər Sadiqovun ifasında muğamlarımız maraqla qarşılanıb.

Muxtar respublikanın Əməkdar artisti Hünər Əliyev və onun şagirdlərinin ifasında “Ritmik muğam kompozisiyası” uğurla alınıb. Bir-birini əvəz edən ritmik muğamlar tamaşaçıda xoş ovqat yaradıb. “Heyratı”, “Qarabağ şikəstəsi” və başqa mərdlik, qəhrəmanlıq əhval-ruhiyyəsi aşılayan muğamlar alqışlarla qarşılanıb.

Xalq çalğı alətləri ansamblının hazırladığı “Ritmik muğam kompozisiyası” tamaşaçılarda xoş ovqat yaradıb.

**Əli RZAYEV**

## Müsabiqə qalibləri mükafatlandırılıblar

Beynəlxalq Əlillər Günü ilə əlaqədar 3-5 dekabr tarixlərində Bakı şəhərində İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunda fiziki məhdudiyyətli şəxslərin X Ümumrespublika Yaradıcılıq Sərgisi – müsabiqəsinə muxtar respublikadan 13 müəllifin 85 əl işi təqdim olunub.

Üç gün davam edən sərgi-müsabiqədə ölkəmizin müxtəlif bölgələrindən 250-dən çox sağlamlıq imkanları məhdud şəxsin hörmə, rəsm, toxuma, xalçaçılıq, dulusçuluq-keramika məmulatları, ağac üzərində oyma, müxtəlif incəsənət və məişət nümunələri, bədii tikmələr üzrə 1500-dən çox əl işi nümayiş edilib. Naxçıvanlı müəlliflərdən Günay Darbazova toxuma-hörmə, Əli Səfərov isə rəngkarlıq nominasiyaları üzrə II, Şahin Həsənov müsabiqənin ağac üzərində oyma növü üzrə III yerə layiq görülüblər.

Fərqlənən iştirakçılar fəxri fərman və hədiyyələrlə mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

Naxçıvan mətbəxi

# Soyuq qış günlərinin ləziz yeməyi – *qaysava*

*Bəzən hər hansısa bir qədim yeməkdən və ya illər öncə baş verən hadisələrdən yazı qələmə almaq istəyəndə insanın köməyinə nə kitablar, nə təcrübəsi, nə də ki internet saytları çatır. Bu zaman müraciət edəcəyimiz bir ünvan qalır – nənələrimiz, ya da ki babalarımız. Qədim yemək növü olan qaysava haqqında yazı qələmə almaq istəyimi yaşı 90-ı ötmüş nənəmə deyəndə məmnuniyyətlə söhbətə başladı:*



– Əvvəllər qışa tədarükün ən vacib işlərindən biri də bağda, çöldə, dağda yetişən meyvələri yığıb qurutmaq idi. Kimi tut, alça, kimi isə ərik qurudardı ki, qışın sərt soyuğunda istifadə etsin. Evdar qadınlar bilirdilər ki, yayda hər işi öz qaydasına qoyub əl damını, payızda isə taylarla çörək yapıb çörək yeşiklərini doldurmaq lazımdır ki, sərt qış günlərində uşağın, böyüyün ruzisi olsun. Həm də ki qapıya qəfil qonaq gələndə təlaşa düşüb nə bişirəcəm, – deyə məəttəl qalmasınlar. Bu adət halına gəlmiş qaydalar analarımızdan bizə, bizdən də öz qızlarımıza yadigar qalıb. Yaxşı yadımdadır, anam, nənəm həyətimizdəki ərik, alça, alma ağaclarının barını yığar, qurudub qışa saxlayardılar. Onlardan qışda yeməklərin bişirilməsində istifadə olunardı. Amma mənim ən çox xoşladığım qaysava yeməyi idi. Bu yeməyin bişirilməsi asan, özü də çox dadlı olur, – deyən nənəm qəhərləndi. Ondan niyə qəhərləndiyini soruşanda dedi:

– Qızım, İkinci Dünya müharibəsi başlayanda mənim 15 yaşım var idi. Atam, qardaşım, kəndin başıpapaqlılarının çoxu cəbhəyə getmişdi. Kolxozun taxıl sahələrindən nə qədər məhsul götürülürdüsə, hamısı cəbhəyə göndərilirdi. Bizə isə çox az miqdarda taxıl verilirdi ki, üyüdüb ehtiyacımızı ödəyək. Gündə ancaq bir öynə çörək tapıb yeyə bilirdik. Soyuq və aclıq çəkdiyimiz qış gecələrində meyvə qurularından hazırlanan yeməklər köməyimizə yetirdi. Qaysava həm yeməyimiz, həm də dərmanımız olurdu. Bəzən isə qaysavaya da möhtac qalırdıq. Yadımda o vaxtdan bir bayatı qalır:

*Olardı tava,*
*Bişirərdik qaysava.*
*Vay tava dərdi,*
*Qaysava dərdi.*

Dilbər nənə onu da deyir ki, bu gün torpağımıza göz dikən xain ermənilərin də ozamankı aclıq vaxtlarında haraylarına biz çatmışıq. Süfrəmizdən çörək, ocağımızdan od vermişik. Erməni kəndlərindən aclıq və səfalət ucbatından qapımıza gələnlərə dəfələrlə sığınacaq da vermişik.

Nənəmi keçmişdəki günlərdən ayırıb, sən heç narahat olma, bu gün dövlətimiz o xainlərə imkan vermir ki, xalqımıza aid olan nəyəsə yiyələnə bilsinlər, – deyirəm və ondan qaysavanı bişirmək qaydasını və faydalarını öyrənirəm.

“Qaysavanı bişirməyi anamdan öyrənmişəm”, – deyən nənəm söhbətə başlayır:

– Qaysava insana hərarət verir, soyuqdəyməyə qarşı xeyirlidir. Bundan başqa, qanazlığına çox faydalıdır. Rahat həzm olunur və insanı uzun müddət tox saxlayır. Ərik qurusundan təkcə qaysava bişirilmir, ondan mürəbbə və kompot da bişirirlər. Umacaşının, plovun qarasına da qatırlar. Qaysava yeməyini iki cür hazırlayırlar: ərik yuyulur, bir qazana yığılır, üzərinə az miqdarda qaynar su tökülüb vam odda qaynamağa qoyulur. Suyu çəkilənə yaxın üzərinə kərə yağı və ya qaymaq əlavə edib, dəmə qoymaq lazımdır. İkinci üsul isə belədir: axşamdan, ya da səhər ertədən yuyub islatdığımız ərik qurusunu süzür, qalın mis qazana yağ töküb onu ocağın üstünə qoyuruq ki, yağ yaxşıca dağ olsun. Sonra da süzgəcdəki ərikləri həmin yağın içinə tökürük. Vam odda bir az bişirəndən sonra yavaşca qarışdırırıq. Hazır olduqda üzərinə cəviz ləpəsi tökürük.

Dilbər nənə deyir ki, qaysava Qarabağda da bişirilərdi. Hazırlanması, demək olar ki, oxşardır. Şuşa rayonunda qaysavaya meyvələrdən xurma və qaysı, əncir mürəbbəsi əlavə olunur, üzərinə darçın səpilərək yeyilir. Laçın rayonunda isə qaysavaya ərik qurusu, kişmiş və şəkər tozu əlavə olunur. Amma Qarabağda, Göyçədə yaşayan qohum-əqrəba Naxçıvandan gələn ərik qurusundan bişən qaysavanın dadını heç nəyin vermədiyini deyir və onlar buraya gələndə ərik qurusu alıb aparırlar. Biz də ora gedəndə sovqatların içərisinə mütləq ərik qurusu qoyardıq.

Nənənin bu sözləri illər öncə yaşadığım Ağcabədi rayonunun cəbhə kəndindəki yaşlı insanların çoxunun Naxçıvandan olduğumuzu biləndə dedikləri “oranın qaysavasının dadına dad çata bilməz” sözlərini xatırlatdı.

O kənddə yaşayan Heyran nənə deyirdi ki, əvvəllər – bu xain ermənilər murdar sifətlərini göstərməmişdən öncə Şuşadan tez-tez Naxçıvana gedərdik. Yaxşı yadımdadır, atamla əmim oradan duz və ərik qurusu yüklənmiş dəvələrlə qayıdardılar. Qonum-qonşu onların ətrafına toplanar və hərə payını alıb öz çoustanına gedərdi. Rəhmətlik anam ərik qurusundan qaysava bişirərdi. Anam naxçıvanlı qızı idi. O, illər öncə Şuşaya gəlin gəlmişdi. İllərdir, Qarabağın gəlini olsa da, qədim yurdunu həmişə uca tutur, ordakı yeməkləri əzizləyə-əzizləyə bişirərdi. Aşıq Ələsgərin bu misralarını tez-tez söyləyərdi:

*Göyçənin qonağa çoxdu hörməti,*
*Qaysava, qayğanaq verir ləzzəti.*
*Plov, dolma, kabab, əmliyin əti...*
*İnsaf eylə, tək motaldan danışma!*

Mən də Ağcabədidən doğma yurduma gəlib qayıdanda Heyran nənəyə ərik qurusu, Naxçıvan duzu, ələyəz payı aparırdım. Bu kiçik hədiyyələr nənə üçün dünyaya bərabər idi. Ərik qurusundan qaysava, ələyəzdən isə sulu ərişdə bişirər, “bu nemətlərin ətrini duyanda uşaq vaxtlarımda Naxçıvanda keçirdiyim gözəl günlərim xəyalımda canlanır”, – deyərdi.

Bəlkə də, bu sətirləri oxuyan hər kəs razılaşar ki, bugünkü gənc nəsil qaysavanın nə olduğunu bilmir. Dövr dəyişilib müasirləşdikcə qədim yeməklərimizin bir çoxu unudulmaqdadır. Artıq bu yeməyi əzizləyə-əzizləyə bişirən nənələrimizin bəzisi də həyatdan köçüb. Lakin Naxçıvan mətbəxinin ləziz yeməyi qaysavanın dadı damaqlarda hələ də qalır.

**Ramiyyə ƏKBƏROVA**

## Şeir müsabiqəsinin qalibləri mükafatlandırılıb

Babək Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Babək qəsəbə 2 nömrəli tam orta məktəbdə rayon ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən “And yerimiz Vətən” adlı şeir müsabiqəsinə yekun vurulub.

Müsabiqənin keçirilməsində məqsəd məktəblilərdə Vətənə məhəbbət, vətənpərvərlik hisslərinin yüksəldilməsi, istedadlı gənclərin üzə çıxarılmasından ibarət olub. Müsabiqədə 21 məktəbdən 25 şagird iştirak edib.

Münsiflərin yekun rəyi nəticəsində Didivar kənd tam orta məktəbinin şagirdi Gülnar Təhməzova qalib adına layiq görülüb. Yarımca kənd tam orta məktəbinin şagirdi Zəhra Məmmədova ikinci, Şəkərabad kənd tam orta məktəbinin şagirdi Səma Abdullazadə üçüncü olub.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

İstedadlar sorağında

# 12 yaşlı şahmatçının uğurları artır

***Hindistanlı şahmat ustası, qadın qrossmeyster Tanya Saçdev deyir ki, şahmat fiziki gücə deyil, daha yaxşı və sürətli hesablamaya, hiyləli ideyalara və gedişlərə, saatın səsi saniyələri göstərərkən əsəblərini nəzarət altında saxlamağa əsaslanır. Kənardan bu, bəzən sakit və səssiz görünə bilər, lakin daxildə – beyində isə bu, sirkə bənzəyir.***



Bu gün muxtar respublikamızda da bu oyuna meyil göstərənlərin sayı yüzlərlədir. Şahmatın kütləviliyinin təmin olunması, inkişafı, şahmat məktəbləri üçün yeni binaların tikilib istifadəyə verilməsi, onların maddi-texniki bazalarının gücləndirilməsi və peşəkar mütəxəssislərin formalaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Belə məktəblərdən biri də Ordubad Rayon Şahmat Məktəbidir. Məktəb 35 il bundan öncə fəaliyyətə başlayıb. 2011-ci il iyul ayının 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Ordubad şəhərində şahmat məktəbi üçün yeni bina istifadəyə verilib. Burada müasir tədris şəraiti yaradılıb. Bunun nəticəsidir ki, son illər muxtar respublika şahmatçılarının ölkə miqyaslı yarışlarda, beynəlxalq turnirlərdə böyük uğurlar qazanırlar. Həmin uğurlarda bu məktəbin də payı var.

Rayon şahmat məktəbində bütün diqqətləri öz üzərinə çəkən gənc şahmatçılardan biri 12 yaşlı Hüseyn Seyiddir. 6 yaşından bu idman növü ilə məşğul olan Hüseynin uğur qazanmasında anası, peşəkar şahmat müəllimi Yeganə Əliyevanın da əməyi var. Eyni zamanda o, şahmat məktəbinin məşqçi-müəllimləri Lamiyə Məmmədovadan, FİDE ustası Sabir Hüseynovdan və ustalığa namizəd Fətulla Həmdiyevdən də şahmatın incəliklərini öyrənib. Hüseyn Seyidin şahmatda gözəçarpan nailiyyətlər əldə etməsində Naxçıvan Şahmat Mərkəzinin məşqçi-müəllimi, şahmat üzrə beynəlxalq dərəcəli usta Talıb Babayevin əməyi isə daha böyükdür. Belə ki, bu növün bir sıra sirlərini Talıb müəllimdən öyrənməyə başlayan Hüseynin nailiyyətləri özünü çox gecikdirməyib. Qısa vaxt kəsiyində o, muxtar respublika daxilində, eləcə də ölkə üzrə keçirilən turnirlərdə uğurlu nəticələr əldə etməyə başlayıb. Xüsusilə 2014 və 2015-ci illərin yanvar aylarında Şəmkirdə keçirilən şahmat üzrə Azərbaycan çempionatının zona birinciliklərində 8 yaşadək olan şahmatçılar arasında 3-cü yerə layiq görülməsi dediklərimizi sübut edir. 2015-ci ildə 8 yaşlı şahmatçılar arasında Bakı şəhərində keçirilən final yarışında ikinci yeri tutan Hüseyn Xorvatiyanın Poreç şəhərində keçirilən Avropa çempionatında iştirak etmək hüququ qazanıb. Elə həmin il Hüseyn 10 yaşadək şahmatçılar arasında Azərbaycan çempionatının final yarışlarında fəxri kürsünün üçüncü pilləsində qərarlaşıb.

Ötən ilin may ayında Naxçıvan şəhərində keçirilən Beynəlxalq Şahmat Festivalında 12 yaşadək şahmatçılar arasında “C” qrupunda 156 şahmatçı arasında Hüseyn Seyid də qələbə uğrunda mübarizə aparıb. İsveçrə sistemi üzrə keçirilən yarışda şahmatçımız 9 turdan sonra 7,5 xal toplayaraq qrupun qalibi olub. Bu yarışdan bir neçə gün sonra isə Bakı şəhərində 10 yaşadək şahmatçılar arasında keçirilən yarışda gənc şahmatçımız yalnız əmsal fərqinə görə dördüncü yerlə kifayətlənib.

Hüseyn Seyid Bakı şəhərində görkəmli Azərbaycan şahmatçısı Vüqar Həşimovun xatirəsinə həsr edilmiş beynəlxalq şahmat turnirində əldə etdiyi uğurla hamının diqqətini cəlb etməyi bacarıb. Belə ki, bir çox adlısanlı şahmatçının iştirak etdiyi turnirdə o, bürünc medal qazanıb.

Qazandığı uğurlar isə onu şahmata daha çox bağlayıb və cari ildə uğurlarına bir neçəsini də əlavə edib. Belə ki, fevral ayında Mingəçevir şəhərində keçirilən 12 yaşadək şahmatçılar arasında Azərbaycan birinciliyinin zona yarışlarında ikinci olan idmançımız Bakı şəhərində keçirilən eyni yaş qrupundan olan şahmatçılar arasında final görüşlərində iştirak etmək hüququ əldə edib. Muxtar respublikamızda keçirilən məktəblilər arasında spartakiadada və 9 Noyabr – Dövlət Bayrağı Gününə həsr olunmuş şahmat üzrə muxtar respublika turnirində Hüseyn Seyid qalib adını qazanıb.

Göründüyü kimi, Hüseyn Seyid muxtar respublikamızda idmana göstərilən diqqət və qayğıdan bəhrələnərək böyük uğurlara imza atıb və bundan sonra da onun belə qələbələr qazanacağına əminik.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2018-ci ilin noyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3247397 | 434131 | 436033 | 100,4 |
| 2. | Şahbuz rayonu | 407480 | 55702 | 55939 | 100,4 |
| 3. | Sədərək rayonu | 187777 | 20906 | 20988 | 100,4 |
| 4. | Ordubad rayonu | 940579 | 111002 | 111128 | 100,1 |
| 5. | Culfa rayonu | 778209 | 93715 | 93813 | 100,1 |
| 6. | Babək rayonu | 1543564 | 201728 | 201800 | 100,0 |
| 7. | Şərur rayonu | 1464649 | 170893 | 170922 | 100,0 |
| 8. | Kəngərli rayonu | 604689 | 73038 | 73039 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 15161435 | 2403173 | 2229103 | 92,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **24335779** | **3564288** | **3392765** | **95,2** |

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 886